**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№259/5** **27 dekabr 2014-cü il**

**“Elektron audit (e-audit) sisteminin yaradılması» barədə**

“Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyası”nın II bölməsinin 10-cu “E-kargüzarlıq sisteminin tətbiqi” bəndinə, VI fəslinin 12-ci “Auditin aparılmasında yüksək texnologiyalardan istifadə və elektron auditin tətbiqi” bəndinə və Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının 1.4-cü “Elektron audit (e-audit) sisteminin yaradılması” bəndinin icrası ilə əlaqədar sədrin elmi-metodik məsələlər üzrə muşaviri N.Talıbovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Auditorlar Palatasının iş planının 1.4-cü «Elektron audit (e-audit) sisteminin yaradılması» bəndinin icrası ilə əlaqədar sədrin elmi-metodik məsələlər üzrə muşaviri N.Talıbovun məruzəsi nəzərə alınsın (əlavə olunur).

**2.** Palatanın Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinə (M. Abbasov), Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov), Maliyyə və təsərrüfat idarəsinə (V. Rəhimov), Analitik informasiya və təhlil şöbəsinə (R.Cəfərli) tapşırılsın ki, Palata Şurası yanında Komitələrin dəstəyi ilə elektron audit (“e-audit”) sisteminin tətbiqinə dair zəruri tədbirlərin davamlı icrasını təmin etsinlər.

**3.** Sədrin müşaviri F.Qarayevə və Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində Azərbaycan, ingilis və rus dillərində yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**